Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin _______tarixli___ №-li Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Heyvanların identifikasiya mərkəzi departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

**1.1**. Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Heyvanların İdentifikasiya Mərkəzi departamentinin (bundan sonra – Departament) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ni, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin sədrinin sərəncam və əmrlərini, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

**2.1.** Departament aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** "Heyvanların İdentifikasiyası və Qeydiyyatı" Sistemi (bundan sonra–HİQS) vasitəsi ilə Azərbaycanda yetişdirilən və ya ölkəyə idxal olunan canlı heyvanların qeydiyyatının və hadisələrin izlənilməsini təmin edir;

**2.1.2.** identifikasiya vasitələrinin sifarişinə, dövriyyəsinə, təchizatına, tətbiqinə, eyni zamanda təyinatı üzrə çatdırılmasına, identifikasiya vasitələrinin istifadəsinə və utilizasiyasına, istehsalını və təchizatını həyata keçirən subyektlərin reyestrinin aparılmasına nəzarəti həyata keçirir;

**2.1.3.** İnstitutun fəaliyyətinin optimallaşdırılması və biznes proseslərinin avtomatlaşdırılması sahəsində innovativ texnologiyaların tətbiqi, digər dövlət qurumları ilə inteqrasiya, heyvanların

qeydiyyatı, şəffaf biznes mühitinin təmin edilməsi məqsədilə HİQS-in hazırlanması və təkmilləşdirilməsini təmin edir;

**2.1.4.** Departamentə yüksək səviyyəli kadrların seçilməsini və onların təkmilləşdirilməsi üçün beynəlxalq və yerli təlimlərin təşkilini həyata keçirir;

**2.1.5.** kəsim yerlərində qida təhlükəsizliyinə nəzarətin yaradılmasını, onların fəaliyyətinə nəzarətə və işin təşkilinə dair metodiki tövsiyyələrin verilməsini təmin edir;

**2.1.6.** qida təhlükəsizliyi və heyvan sağlamlığı sahəsinin inkişafı ilə bağlı tədbirlər görür;

**2.1.7.** Departamentin inkişafını təmin etmək üçün qabaqcıl beynəlxalq təcrübənin mütəmadi olaraq öyrənilməsini təşkil edir;

**2.1.8.** Departamentin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə qanunvericiliklə nəzərdə tutulmuş qaydada tədbirlər görür;

**2.1.9.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Departamentin vəzifələri

**3.1.** Departamentin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** Departamentin şöbələrinin kadr potensialını gücləndirmək;

**3.1.2.** HİQS-də mövcud olan informasiyanın təftişini, istifadəçilərin daxil etdiyi məlumatları yoxlayaraq düzəlişlərin edilməsini, daxil olmuş bildirişlərin nəzarətə götürülməsini, heyvan yerdəyişməsi və daşınma müraciətlərinə imtina, dayandırma və ya icazələrin verilməsini təmin etmək;

**3.1.3.** dövriyyədən çıxmış identikləşmə vasitələrinin utilizasiyası və ya məhv edilməsinə nəzarət etmək;

**3.1.4.** HİQS-in fəaliyyətinin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

**3.1.5.** identifikasiya vasitələrinə olan tələbatı müəyyən etmək;

**3.1.6.** identifikasiya vasitələrinin istehsalı və ya satınalınması barədə təklifləri hazırlamaq;

**3.1.7.** identifikasiya vasitələrinin sifarişi, təchizatı, tətbiqi və utilizasiyası əsasında reyestrin aparılmasını təmin etmək;

**3.1.8.** Azərbaycan Respublikasında yetişdirilən və ya ölkəyə idxal olunan canlı heyvanların yaşam həyatının (doğumundan ölümünədək) tam şəkildə izlənməsinə, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsinə və xəstəliklərdən azad zonaların yaradılmasına əsaslı təkan verəcək bir sistemin idarə olunması və inkişaf etdirilməsinə dair fəaliyyətləri yerinə yetirmək;

**3.1.9.** HİQS-in fəaliyyətinin təmin edilməsi üçün digər dövlət qurumları ilə məlumat mübadiləsi həyata keçirmək və inteqrasiyalar aparılmasını təmin etmək;

**3.1.10.** "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" İnformasiya Sisteminin (bundan sonra – AQTİS) HİQS-ə və elektron hökumət portalına inteqrasiya edilməsini və elektron xidmətlərin işlənib hazırlanmasını təmin etmək;

**3.1.11.** istifadəçilərin proqram təminatından istifadəsini dəstəkləmək, təlimlərin təşkili, təlimat xarakterli materialların hazırlanmasını təmin etmək;

**3.1.12.** kəsim məntəqələrində fəaliyyət istiqamətlərinin təhlilli və təkmilləşdirilməsi işlərini aparmaq;

**3.1.13.** kəsim məntəqələrinə gətirilən heyvanların sağlamlığı sahəsində mövcud vəziyyəti təhlil etmək, dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanması və həyata keçirilməsində iştirak etmək;

**3.1.14.** kəsim məntəqələrində baytarlıq-sanitariya ekspertizasının keyfiyyətli aparılması üçün yüksək səviyyəli kadrların seçilməsini, onların təkmilləşdirilməsi üçün təlimlərin təşkilini həyata keçirmək;

**3.1.15.** kəsim məntəqələrində fəaliyyət göstərən baytar həkimlərə təqdim edilmiş möhür və ştampların qanunvericiliklə müəyyən edilmiş qaydada istifadəsinə nəzarəti həyata keçirmək;

**3.1.16.** kəsim məntəqələrinin baytarlıq sanitariya baxımından modernləşdirilməsi sahəsində sahibkarlara məsləhət vermək və təlimlər təşkil etmək;

**3.1.17.** kəsim məntəqələrində baytarlıq-sanitariya sahəsində monitorinqlər keçirmək, çatışmazlıqları müəyyən etmək və onların aradan qaldırılması üçün təkliflər vermək;

**3.1.18.** fəaliyyəti ilə bağlı aylıq, rüblük və illik hesabatlar hazırlayaraq rəhbərliyə təqdim etmək;

**3.1.19.** qanunvericiliklə müəyyən edilmiş qaydada Departamentə daxil olmuş müraciətlərin qəbulu, araşdırılması və cavablandırılmasını təmin etmək;

**3.1.20.** fəaliyyət istiqamətlərinə uyğun olaraq, İnstitutda və Agentlikdə yaradılmış komissiyalarda, işçi qruplarında və s. təmsil edilmək və onların işində iştirak etmək;

**3.1.21.** qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya sirrinin, dövlət sirrinin və məxfiliyin qorunmasını təmin etmək;

**3.1.22.** Departamentin əməkdaşları üçün sağlam və təhlükəsiz əmək şəraitini təmin etmək məqsədilə təkliflər vermək;

**3.1.23.** fəaliyyət istiqaməti üzrə baş verən və ya baş verə biləcək mənfi halların qarşısının alınması məqsədilə əhalinin maarifləndirilməsində iştirak etmək;

**3.1.24.** Departamentin fəaliyyət istiqaməti üzrə ölkədə baş verən və baş verə biləcək böhran vəziyyətlərinin qarşısının alınması məqsədilə yerli və beynəlxalq monitorinqlərdə iştirak etmək və qanunla müəyyən edilmiş qaydada müvafiq tədbirlər görmək;

**3.1.25.** Departamentin əməkdaşlarının ixtisasının artırılması üçün rəhbərliyə təkliflər vermək;

**3.1.26.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

**4.1.** Departament öz vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** Kəsim yerlərində heyvan sağlamlığına dair daimi olaraq təftiş aparmaq;

**4.1.2.** İnstitutun digər struktur bölmələri ilə əlaqəli işləmək;

**4.1.3.** fəaliyyət istiqamətləri üzrə tədqiqat sınaqlarını aparmaq, səmərələşdirici təkliflər vermək;

**4.1.4.** fəaliyyət istiqamətləri üzrə prosedur və təlimatlar hazırlamaq;

**4.1.5.** rəhbərləyin razılığı ilə beynəlxalq və yerli təlimlərdə iştirak etmək;

**4.1.6.** fəaliyyət istiqamətləri üzrə təlimlər və seminarlar təşkil etmək;

**4.1.7.** əməkdaşların mükafatlandırılması və onların həvəsləndirilməsi üçün rəhbərliyə təkliflər etmək;

**4.1.8.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

**5.1.** Departamentin fəaliyyətinə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra ismin müvafiq hallarında – Departament müdiri) rəhbərlik edir. Departament müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır;

**5.2.** Departament müdiri:

**5.2.1**. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.2.2.** tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.2.3.** Departamentə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər müvafiq sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.2.4.** Departament əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün İnstitutun rəhbərliyinə təqdimatlar verir;

**5.2.5.** Departamentin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər struktur bölmələrindən məlumat və sənədləri alır;

**5.2.6.** Departamenti təmsil edir.

**5.3.** Departament 2 şöbə və 1 sektordan ibarədir:

**5.3.1.** Heyvanların identifikasiyası işinin təşkili şöbəsi;

**5.3.2.** Baytarlıq-sanitariya ekspertizası işinin təşkili şöbəsi;

**5.3.3.** Ağdam kəsim məntəqəsinin idarə edilməsi sektoru.

**5.4.** Departament müdirinin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Departament müdirinin müavini Departament müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Departament müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada departament müdirinin müavini və ya İdarə Heyətinin sədri tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir;

**5.5.** Şöbələrə və sektora İnstitutun sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdirləri və sektor müdiri rəhbərlik edir.

**5.6.** Departamentin digər əməkdaşları İnstitutun sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

**5.7.** Departamentin əməkdaşları öz səlahiyyətlərini vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

**5.8.** Departamentin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.